# Dövlət gömrük komitəsinin yaranmasından 21 il keçir

Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin mühüm tədbirlərindən biri gömrük sisteminin yaradılması idi. Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il 12 iyul tarixdə verdiyi qərarı ilə yaradılan gömrük qurumu Azərbaycan ərazisini qeyri qanuni ticarətdən və qacaqmalçılıqdan qorumaq məqsədilə təşkil edilmişdir. Hökumətin qərarı ilə Qazax qəzasının Salahlı və Şıxlı kəndlərində, Poylu dəmir yolu stansiyasında, ümumilikdə Azərbaycanın sərhədlərində 99 gömrük postu yaradılmışdır. Həmin postlarda xeyli sayda gömrük işçisi keşik çəkirdi.

Azərbaycanda gömrük sisteminin fəaliyyəti uzun müddət davam etmədi. Çünki aprel işğalı digər sahələrdə olduğu kimi, gömrük sistemində də işlərin başa çatmasına imkan vermədi. Xatırladaq ki, sovet dönəmində bizim respublikamızda gömrük sistemi mövcud olmamışdır. Bu iş yalnız ittifaq orqanları tərəfindən həyata keçirilirdi.

Amma Azərbaycan ikinci dəfə öz dövlət müstəqilliyinə qovuşandan sonra--1992-ci il yanvarın 29-da müstəqil gömrük sisteminin əsası qoyuldu. Gömrük sistemi hazırda dövlət xəzinəsini gəlirlərlə təmin edən ən mühüm dövlət atributlarından biridir. Bu sistem həm ölkəyə qeyri- qanuni yolla müxtəlif malların gətirilməsinin, həm də ölkənin ən mühüm stareji sərvətlərinin aparılmasının qarşısını almaq uğrunda mübarizə aparır.

Müstəqilliyimizin ilk illərində xaos gömrük sistemindən də yan ötməmişdi. O vaxt hakimiyyətdəkilərin səriştəsiz idarəçiliyi ucbatından ölkədə gömrük strukturunun fəaliyyəti demək olar ki, hiss olunmurdu. Mühüm vəzifələrə təsadüfi adamların önə çəkilməsi ən acınacaqlı məsələlərin biri idi. Xalqın istəyi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dövlət gömrük orqanlarının fəaliyyətində əsaslı keyfiyyət dəyişikliklərinin təməli qoyuldu, qanunçuluq və dövlətçilik prinsipləri ön plana çəkildi, sərhədlərdəki özbaşınalıqların, strateji əhəmiyyətli sərvətlərin ölkədən çıxarılmasının qarşısı qətiyyətlə alındı. Qısa zaman kəsiyində gömrük orqanlarının sıraları təsadüfü adamlardan, dövlətçilik maraqlarına və gömrük adına ləkə gətirən kadrlardan təmizləndi. Rəhbər vəzifələrə sağlam düşüncəli, səriştəli, peşəkar kadrlar təyin edildi. Gömrük sərhəd buraxılış məntəqələrində gömrük nəzarəti gücləndirilmiş, qeyri-qanuni yolla gömrük ərazisinə mallar və nəqliyyat vasitələrinin gətirilməsinin qarşısı alınmışdır.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə gömrük sisteminin maddi-texniki təchizatı gücləndirilmişdir. Son illər ölkənin bir sıra sərhəd buraxılış məntəqələri üçün yeni inzibati binalar tikilmiş, gömrük sistemində çalışanların əmək haqqları bir neçə dəfə artırılmışdır. Məhz büna görə bu gün gömrük sistemində işləyən insanlar üzərinə düşən vəzifələri inamla yerinə yetirir, gömrük sərhəd buraxılış məntəqələrində gömrük nəzarətini qanun çərsivəsində icra edirlər.

Təbii ki 2003-cü ildən bəri ölkə gömrük sisteminin fəaliyyətinin keyfiyyətcə yaxşılaşdırılmasında cənab Prezident İlham Əliyevin xidmətləri əvəzsizdir. Ölkə başçısı gömrük sistemində mövcud olan çətinlikləri aradan qaldırmaq məqsədilə ötən müddətdə yeni inzibati binaların və gömrük buraxılış məntəqələrinin tikintisinə xüsusi diqqət yetirmişdir. Həyata keçirilən davamlı tədbirlərə görə gömrük işçiləri dövlətin qayğısından razıdırlar.

Hazırda gömrük işçiləri ulu öndər Heydər Əliyevin imzaladığı sərəncama əsasən hər il yanvarın 29-nu özlərinin peşə bayramlarını qeyd edirlər.

**Aslan CƏLİLOV.**

# Qəbələ turizm mərkəzinə çevrilib

Əsrarəngiz təbiəti ilə seçilən, uca dağların qoynunda yerləşən Qəbələnin adı bu gün daha uzaqlarda səslənir və bu gözəllik diyarı əcnəbiləri cəlb edən turist məkanına çevrilib. Qəbələ şəhərinin şimalında, dağların əhatəsində gözəl görüntüsü ilə diqqəti cəlb edən turizm mərkəzləri və bu yerlərin saf havası, səfalı təbiəti, turistlərin bəyəndiyi yerlər dillər əzbəri olmuş, onu görmək arzusunda olanların sayı aydan-aya, ildən-ilə artır. Bu gün iftixarla demək olar ki, bu qədim dağ diyarında etmişlər. İstirahətə gələnlərin əksəriyyəti ölkə vətəndaşları olmuşdur. Yola saldığımız 2012-ci ildə rayonumuzda 13 turizm və istirahət mərkəzi fəaliyyət göstərmişdir. Bu istirahət mərkəzlərində həm turistlərə, həm də qonaqlara göstərilən xidmətin səviyyəsi nümunəvi qaydalara uyğun təşkil olunmuşdur. Bütün otaqlar havalandırma sistemləri, peyk televiziya, beynəlxalq telefon xətləri, simsiz internetlə təchiz edilmişdir. Bunlardan başqa yaradılmış sağlamlıq mərkəzi, sauna, bərxana, gözəllik salonu, müxtəlif növlu idman kompleksləri turistlərə xidmət edir. Bundan əlavə turistlərə mədəni xidmət göstərilməsi ön planda olur, Vaxtaşırı mədəni xidmət göstərmək məqsədilə həm ölkənin tanınmış müğənnilərinin, həm də rayon mədəniyyət və turizm şöbəsinin incəsənət işçilərinin geniş konsert proqramları təşkil edilir.



kifayət qədər görməli, gəzməli yerlər var. Əcnəbilərlə yanaşı, bu yerlər yerli əhalinin də marağına səbəb olub. Adını, gözəlliyini eşidənlər Qəbələni də gəzmək və burada istirahət etmək sevdasına düşürlər.

Bir məsələni də qeyd etmək lazımdır ki, Qəbələyə turistlər yay aylarında daha çox gəlməyə meyillidirlər. Onlar burada eyni zamanda istirahət etməklə yanaşı, əsrlərin yadda qalan mədəniyyət abidələri, qəbələlilərin qonaqpərvərliyi, adət-ənənələri ilə də tanış olurlar. Elə buna görə əvvəlki illərdən çox fərqli olaraq 2012-ci ildə Qəbələyə burada fəaliyyət göstərən turizm-istirahət mərkəzlərində və şəxsi evlərdə istirahət etmək üçün 50 minə yaxın əcnəbi və yerli qonaq gəlmişdir.

2011-ci ilə nisbətən ötən il 11 mindən çox əcnəbi və yerli qonaqlar Qəbələdə istirahət

Hal-hazırda rayon üzrə fəaliyyət göstərən mehmanxana tipli istirahət obyektlərində 1303 nömrə mövcuddur. Bunların da 68-i lüks, 353-ü birinci dərəcəli nömrələr sırasındadır.

2013-cü ildə turizm və istirahət mərkəzlərində daha yüksək səviyyədə xidmət göstərmək, məqsədilə indi bütün yarımçıq işlər başa çatdırılır və burada işgüzar şərait yaradılır.

**Anar RÜSTƏMLİ,**
**mədəniyyət və turizm şöbəsinin inspektoru.**

# Amansız qətl azadlıq əzmini qıra bilmədi

(Əvvəli 4-cü səhifədə).

Sonra məktəbin şagirdləri 20 Yanvar faciəsinə və onun qurbanlarına həsr olunmuş şeirlərdən parçalar söyləmişlər.

Yığıncaqda müəllimlərdən Hicran Qaçayeva, Nigar Məmmədova və digərləri çıxış edərək 20 Yanvar faciəsini törədənləri lənətləmiş və qeyd etmişlər ki, Qanlı 20 Yanvar hadisələrindən 23 il ötsə də bu hadisə Azərbaycan xalqının tarixinə milli azadlıq, dövlət müstəqilliyi uğrunda mübarizənin zirvəsi kimi daxil olmuşdur. Əsrlər, nəsillər dəyişsə də, həmin Qanlı Yanvar gecəsi xalqımızın yaddaşından heç zaman silinməyəcəkdir.

Anma mərasimində çıxış edən məktəbin direktoru Azad Məmmədov bildirdi ki, 20 Yanvar faciəsinin dəhşətləri təkcə ölən və yaralananların sayı ilə deyil, həm də Bakıya yeridilmiş ordu hissələrinin xüsusi amansızlığı ilə, onların insanlara qarşı törətdikləri vəhşiliklərlə şəciyyələnir. Bütün bu hərəkətlər şəksiz şəkildə 20 Yanvarın xüsusi niyyətlə süni formada, özü də məqsədli şəkildə törədilməsindən xəbər verir.

Ermənilər bu dəfə öz planlarını M. Qorbaçovun əli ilə törətdilər. 20 Yanvar mərkəzi və yerli dövlət hakimiyyəti orqanlarında oturmuş ermənipərəst rəhbərlərin günahı ucbatından baş verdi. Faciədən keçən dövrdə bu günahkar təbəqələrdən hər biri özünün günahsız olmasını hər vəchlə sübut etməyə çalışsa da, tarix bu hadisəyə öz siyasi qiymətini vermişdir.

**«Qəbələ»**